+–

# AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRİ

## Ə M R

№ 14

Bakı şəhəri "20" fevral 2017 il

**"Özəl tibb, əczaçılıq və prekursorların istehsalı, idxalı, ixracı, tranzit nəql edilməsi fəaliyyətlərinin lisenziyalaşdırılması üzrə rəyin verilməsi işinin təkmilləşdirilməsi barədə"**

"Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 19.6.1-ci maddəsinə və Azərbaycan Respublikası Prezidentinin 21.12.2015-ci il tarixli 713 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Lisenziyalaşdırma Qaydası"nın 2.4.1-ci yarımbəndinə uyğun olaraq, özəl tibb, əczaçılıq və prekursorların istehsalı, idxalı, ixracı, tranzit nəql edilməsi fəaliyyətlərinin lisenziyalaşdırılması üzrə rəyin verilməsi işinin təkmilləşdirilməsi məqsədilə "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 14.5-ci bəndlərini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. "Özəl tibb, əczaçılıq və prekursorların istehsalı, idxalı, ixracı, tranzit nəql edilməsi fəaliyyətlərinin lisenziyalaşdırılması üzrə rəyin verilməsi üçün Komissiya" 1 nömrəli əlavədə göstərilən tərkibdə yaradılsın.

2. "Özəl tibb, əczaçılıq və prekursorların istehsalı, idxalı, ixracı, tranzit nəql edilməsi fəaliyyətlərinin lisenziyalaşdırılması üzrə rəyin verilməsi işinə cəlb olunan mütəxəssislərin siyahısı" təsdiq edilsin (2 nömrəli əlavə).

3. "Özəl tibb, əczaçılıq və prekursorların istehsalı, idxalı, ixracı, tranzit nəql edilməsi fəaliyyətlərinin lisenziyalaşdırılması üzrə rəyin verilməsi üçün Komissiya"ya tapşırılsın:

3.1. özəl tibb, əczaçılıq (dərman vasitələrinin hazırlanması, istehsalı, topdan və pərakəndə satışı) və prekursorların istehsalı, idxalı, ixracı, tranzit nəql edilməsi fəaliyyətlərinin lisenziyalaşdırılması üçün rəyin verilməsi məqsədilə Səhiyyə Nazirliyinə

daxil olan müraciətlərə qanunvericiliklə müəyyən edilmiş müddət ərzində cavab verilməsi təmin edilsin;

3.2. yuxarıda qeyd olunan müddətdə rəyin hazırlanması mümkün olmadıqda həmin müddətin uzadılması üçün qanunvericiliklə nəzərdə tutulmuş qaydada əsaslandırılmış müraciət təqdim olunsun.

4. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 14.11.2013-cü il tarixli 136 nömrəli əmrinin 1-ci, 2-ci, 3-cü və 5-ci hissələri ləğv edilsin.

**Nazir** **Oqtay Şirəliyev**